

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 oktyabr 2025-ci il №71 (2980) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezident İlham Əliyev: Türk dünyası bizim ailəmizdir!




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində 3 oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"3 oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günüdür.

Məhz bu gün 2009-cu ildə qədim Azərbaycan torpağı olan Naxçıvanda Türk Dövlətləri Təşkilatının əsası qoyulmuşdur.

Bu əlamətdar gün münasibətilə Türk dünyasını səmimi-qəlbdən təbrik edirəm.

Türk dünyası bizim ailəmizdir!

Ötən 16 il ərzində təşkilatımız güclənmiş, dünya miqyasında böyük nüfuz qazanmış, sıralarımız genişlənmişdir.

Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinə, Türk xalqları arasında həmrəyliyin daha da möhkəmlənməsinə böyük töhfə vermişdir.

Azərbaycan Türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək. Qardaşlığımız əbədidir!".

## Prezident İlham Əliyev Cəbrayıl şəhərinin işğaldan azad edilməsinin ildönümü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində Cəbrayıl şəhərinin işğaldan azad edilməsinin 5-ci ildönümü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

## Azərbaycan Prezidenti İlham Əliyevin Danimarkaya işgüzar səfəri



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün bu ölkəyə işgüzar səfər edib.***

Kopenhagen şəhərinin beynəlxalq aeroportunda Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər qarşılayıblar.

* * *

Oktyabrın 1-də Kopenhagendə Danimarka Kralı X Frederik və Kraliçası Meri Elizabetin adından ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kopenhagendə Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

Dövlətimizin başçısı Moldovada keçirilmiş parlament seçkilərində Maya Sandunun rəhbərlik etdiyi hakim Fəaliyyət və Həmrəylik Partiyasının qələbə qazanması münasibətilə təbriklərini çatdıraraq, bu seçkilərin Moldova xalqının iradəsini əks etdirdiyini deyib.

Moldova Prezidenti təbriklərə görə təşəkkürünü ifadə edib. O da öz növbəsində Vaşinqtonda Ermənistanla Azərbaycan arasında Amerika Birləşmiş Ştatlarının şahidliyi ilə sülh gündəliyi üzrə əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevi təbrik edib.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələrin tarixi əhəmiyyət kəsb etdiyini bildirib.

Görüşdə ikitərəfli münasibətlərimizin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb, xüsusilə də enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulanıb.

Prezident Maya Sandu Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub.

Görüşdə Antonio Koşta və Ursula Fon der Lyayen dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik ediblər, bunun regionda davamlı sülhün təmin olunmasına xidmət edəcəyinə ümidvarlıqlarını bildiriblər. Antonio Koşta və Ursula Fon der Lyayen sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildiriblər. Onlar, həmçinin regionda nəqliyyat bağlantılarının inkişafının Avropa İttifaqı üçün mühüm istiqamət olduğunu deyiblər.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan müdafiə naziri İtaliya tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İtaliya Respublikasının müdafiə naziri cənab Quido Krosettoya başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Latsio regionundakı Çirçeo Milli Parkı yaxınlığında təlim uçuşları zamanı İtaliya Hərbi Hava Qüvvələrinin 70-ci Aviasiya alayına məxsus "T-260B" tipli təyyarənin qəzaya uğraması nəticəsində iki hərbi qulluqçunun həlak olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olan hərbi qulluqçulara Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

## “Ordumuz, Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, qəhrəmanlıq göstərmişdir və işğalçıları Cəbrayıl şəhərindən qovmuşdur”

Azərbaycan xalqı bu gün tarixinin ən qürurlu və şərəfli dövrünü yaşamaqdadır. Ərazi bütövlüyü tam, müstəqilliyi əbədi, bayrağı şanlı olan Odlar Yurdu Azərbaycan bu gün təkcə regionda deyil, dünyada da söz sahibidir. Sözünü əməlində təsdiqləmiş bir dövlət başçısı, Zəfərini qanı ilə qazanmış bir əsgəri, həmrəyliyini bütün dünyaya tanıtmış xalqı olan ölkəmizin inkişafı və firavanlığı yüksələn xətlə davam edir.

Bu gün Vətənimizin bütünləşməsində, ərazi bütövlüyümüzün təmin olunmasında öz canını fəda edən oğullarımızın yazdığı misilsiz Böyük Qələbə xalqımızın torpaq, oba, yurd həsrətini sonlandırıb. Azərbaycanın əzəli və əbədi tarixi yurd yerlərindən biri də Cəbrayıldır. Cəbrayıl rayonu Kiçik Qafqaz silsiləsinin cənub-şərqində, Araz çayının sol sahilində yerləşən ərazi inzibati vahidimizdir. Şimal tərəfdən Xocavənd, cənub tərəfdən İran İslam Respublikası, şərq tərəfdən Füzuli, qərb tərəfdən Qubadlı, cənub-qərb tərəfdən Zəngilan rayonları ilə həmsərhəd olan Cəbrayıl rayonunun adı onu formalaşdıran tayfanın adı ilə bağlıdır. Cəbrayıl rayonu ərazisində Dağ Tumas kəndi yaxınlığında "Divlər Sarayı" mağarası, "Məscid Təpəsi", "Qumtəpə" və "Canqulu" kurqanları və digər məqbərə və türbələrdən ibarət maddi və mədəni abidələri yerləşir.

**(Ardı 5-ci səhifədə)**

## “Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Azərbaycan Respublikasının müasir ordusu ölkəmizin təhlükəsizliyinin və suverenliyinin əsas təminatçısıdır. Azərbaycan Ordusunun yaradılması və inkişaf etdirilməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş uğurlu strategiyanın nəticəsidir. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ulu Öndər ordu quruculuğu sistemini prioritet istiqamət kimi əsaslandırdı. Ölkədə tüğyan edən hərc-mərcliyin, xaosun qarşısı alındı. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, ərazi bütövlüyünü bərpa etmək məqsədilə ordu quruculuğu prosesində sistemli şəkildə islahatlar həyata keçirildi, müasir dövrün tələblərinə uyğun yüksək döyüş qabiliyyətli ordu formalaşdırıldı. Ordu quruculuğu prosesi həm maddi-texniki baza, həm də peşəkar kadr potensialının formalaşdırılması istiqamətində də uğurla davam etdirildi.

**(Ardı 6-cı səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Danimarkaya işgüzar səfəri



(Əvvəli 1-ci səhifədə)

Görüşdə Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunulub, 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq Azərbaycanın Avropanın qaz bazarına ixracının həcminin artdığı bildirilib.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib və sülh gündəliyi ilə bağlı nailiyyətlərin bütün region, o cümlədən Ermənistan və Azərbaycan üçün tarixi əhəmiyyət kəsb etdiyini deyib. Prezident İlham Əliyev həm Ermənistanın, həm də Azərbaycanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını qeyd edib və ölkəmizin sülh gündəliyinin irəli aparılması üçün səyləri davam etdirəcəyini vurğulayıb.



Prezident İlham Əliyev hazırda Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövlətinin Azərbaycan qazını aldığını bildirib və bunun Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə olduğunu deyib.

Dövlətimizin başçısı Azərbaycanın Orta Dəhlizin inkişafında oynadığı rolu qeyd edərək, ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışıb və hazırda Mərkəzi Asiyadan Azərbaycan ərazisindən nəqliyyat daşımalarının həcminin artdığını bildirib.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişaf etdirilməsi və yeni səviyyəyə qaldırılması üçün yaxşı imkanların olduğu vurğulanıb.

* * *

Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.



Görüşdə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayıblar. Onlar Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bir daha təsdiq ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri regionda nəqliyyat kommunikasiyalarının faydalarını vurğulayıb, Azərbaycan ərazisində infrastrukturun inkişafı ilə bağlı cari işlərin gedişatı və Ermənistan ərazisində TRIPP layihəsini müzakirə edib, Vaşinqton Bəyannaməsinin icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər bu xüsusda ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların ləğv olunması ilə bağlı yekdilliklə qəbul edilmiş qərarı alqışlayıblar.

Görüşdə tərəflər etimad quruculuğu tədbirlərinin bundan sonra da həyata keçirilməsinin vacibliyini vurğulayıb və təmasları davam etdirmək barədə razılığa gəliblər.

* * *

Oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Danimarkanın Baş naziri Mette Frederiksen Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşılayıb.

Qeyd edək ki, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Plenar iclaslarda və ondan sonra keçiriləcək dəyirmi masalarda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və Hibrit təhlükələr kimi mövzular müzakirə olunur.

"Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.





* * *

Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sonra tədbirin iştirakçıları birgə foto çəkdiriblər.



* * *

Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü olub.

Görüşdə Azərbaycanla İtaliya arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyi bildirilib və bu xüsusda bir neçə gün əvvəl İtaliya Prezidentinin Azərbaycana uğurlu rəsmi səfəri, səfər çərçivəsində Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı qeyd olunub.

Söhbət zamanı Azərbaycan ilə İtaliyanın enerji sahəsində uğurlu əməkdaşlığına toxunulub, ölkəmizin İtaliyanın enerji təhlükəsizliyinə töhfəsi vurğulanıb. Ölkələrimiz arasında investisiyalar, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub.

* * *

Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.

Ukrayna Prezidenti Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev sülh gündəliyinin irəliyə aparılması istiqamətində atılmış addımların tarixi əhəmiyyət kəsb etdiyini deyib. Dövlətimizin başçısı regionda davamlı sülhün təmin olunması üçün Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğulanıb.

Görüşdə Azərbaycanın Ukraynaya humanitar dəstəyi, xüsusilə də ukraynalı uşaqlara göstərilən diqqət və qayğı qeyd olunub. Ukrayna tərəfi buna görə təşəkkürünü bildirib.

Söhbət zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

* * *

Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşü olub.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Danimarkaya işgüzar səfəri



**(Əvvəli 2-ci səhifədə)**

Niderlandın Baş naziri Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələrlə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdıraraq, bunun mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Prezident İlham Əliyev də öz növbəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistanla Azərbaycan arasında imzalanmış Vaşinqton Bəyannaməsinin və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına dair sənədin regional sülh baxımından əhəmiyyətinə toxunub, iki ölkə arasında artıq sülhün mövcud olduğunu qeyd edib.

Görüşdə Niderland şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi vurğulanıb, bunun gəmiçilik, limanların qurulması, elektrik sənayesi, kənd təsərrüfatı, şəhərsalma və digər sahələri əhatə etdiyi qeyd olunub.

Söhbət zamanı Azərbaycanla Niderland arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub.

Niderlandın Baş naziri ölkəmizdə COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb və həmin tədbir çərçivəsində beynəlxalq iqlim gündəliyi ilə əlaqədar ciddi nəticələrin əldə olunduğunu qeyd edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Fransa Respublikasının Prezidenti Emmanuel Makron ilə görüşü olub.

Fransa Prezidenti Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə əlaqədar nəticələr münasibətilə dövlətimizin başçısını təbrik edib.





Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələrin regional sülh gündəliyinin irəli aparılması üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Dövlətimizin başçısı hazırda sülh gündəliyinin irəliyə aparılması üçün müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd edib.

Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan HDQ nümayəndə heyəti “SEAFUTURE 2025” beynəlxalq sərgisində iştirak edir



Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı 1-ci dərəcəli kapitan Şahin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti İtaliya HDQ komandanı admiral Enriko Kredendinonun dəvəti ilə "SEAFUTURE 2025" 9-cu beynəlxalq sərgidə iştirak etmək üçün İtaliyada rəsmi səfərdədir.

Müdafiə Nazirliyi xəbər verir ki, dəniz təhlükəsizliyi, regional əməkdaşlıq və hərbi dəniz qüvvələri arasında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi məqsədilə keçirilən sərgidə dünyanın müxtəlif ölkələrinin nümayəndələri, hərbi sənaye komplekslərinin təmsilçiləri və müdafiə sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar iştirak edirlər.

Sərgi çərçivəsində Azərbaycan HDQ komandanı italiyalı həmkarı ilə görüşərək qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparıb.

Azərbaycan nümayəndə heyəti "SEAFUTURE 2025" beynəlxalq sərgisində təqdim olunan müasir dəniz texnologiyaları, innovativ hərbi dəniz həlləri və digər müdafiə məhsulları ilə tanış olub.

Azərbaycan HDQ-nin bu səviyyədə beynəlxalq tədbirlərdə iştirakı ölkəmizin regionda və beynəlxalq aləmdə təhlükəsizlik sahəsində artan rolunun bariz nümunəsi, eləcə də dəniz qüvvələrinin peşəkarlığının və hərbi texniki potensialının yüksəldilməsi istiqamətində atılan addımların tərkib hissəsidir.





# Polad sipər: tank bölmələrinin gücü və şücaəti



Müasir müharibələrin uğurla nəticələnməsində dəqiq planlaşdırma, genişmiqyaslı zərbələrin tətbiqi və operativ koordinasiya həlledici əhəmiyyət daşıyır. Azərbaycan Ordusunun ən güclü zərbə qüvvələrindən biri də tank bölmələridir. Tank bölmələri düşmənin ön cəbhə xəttini yarmaq, müdafiə sədlərini dağıtmaq, strateji mövqeləri nəzarətə götürmək, mühüm əraziləri azad etmək üçün xüsusi rol oynayır. Bu sahədə xidmət edən hər bir ekipaj üzvü texniki biliklərlə yanaşı, yüksək dözümlülük və dəmir iradəyə sahib olmalıdır. Tank heyətinin fəaliyyəti çətin və məsuliyyətlidir. Texnikanı idarə etmək, operativ qərar vermək, müharibənin gedişatını dəyişdirə biləcək addımlar atmaq yalnız fiziki güc deyil, eyni zamanda, taktiki düşüncədə tələb edir. Buna görə də tank bölmələrinin döyüş meydanındakı rolu texnologiya ilə insan amilinin qovuşduğu vəhdət kimi xarakterizə olunur.

44 günlük Vətən müharibəsində digər bölmələr kimi, Azərbaycan Ordusunun igid tankçıları da digər bölmələr kimi xüsusi şücaət nümayiş etdirdilər. Torpaqlarımızın işğaldan azad olunması uğrunda həyata keçirilən əməliyyatlarda tank bölmələri ön sıralarda yer aldı, düşmənin beton maneələrini və möhkəmləndirilən istehkamlarını yararaq tarixi qələbənin qazanılmasında pay sahibi oldular. Müharibənin ən ağır məqamlarında “dəmir atlarımız” piyada bölmələrinə dəstək verdi, düşmən atəş nöqtələrinin sıradan çıxarılmasında əvəzsiz rol oynadı.

Tank texnikası düzənlik və yarıdüzən relyeflərdə daha yüksək effektivlik göstərir. Şəhər döyüşlərində tətbiqi isə xüsusi hazırlıq və koordinasiya tələb edir, çünki dar küçələr və sıx tikililər tankların hərəkətini mehdudlaşdırır. Buna görə də şəhər əməliyyatlarında tanklardan daha çox dəstəkçi və psixoloji üstünlük amili kimi istifadə edilir.

XXI əsrin hərbi əməliyyatlarında pilotsuz uçuş aparatlarının (PUA) geniş tətbiqi tankların fəaliyyətinə də yeni yanaşmalar gətirib. Tank bölmələri PUA təhlükəsinə qarşı aktiv müdafiə sistemləri ilə təchiz olunur, optik gizlənmə vasitələri və relyefdən səmərəli istifadə taktikaları ilə qorunur. Maskalanma, səngər sistemlərinin qurulması, relyefdən istifadə, sürətli mövqe dəyişdirmə tankların döyüş meydanında daha uzunmüddətli və effektiv fəaliyyətini təmin edir. Beləliklə, klassik zirehli texnika müasir texnologiyalarla birləşərək Azərbaycan Ordusuna döyüş meydanında üstünlük qazandırır.

Tankı idarə etmək və döyüş şəraitində tətbiq etmək xüsusi hazırlıq tələb edir. Ekipaj üzvləri xüsusi sürücülük hazırlığı - müxtəlif iqlim şəraitində və mürəkkəb relyefdə tankın idarə olunması, mexaniki biliklər - tankın quruluşu, mühərrik, silah sistemi və digər texniki göstəricilərin mənimsənilməsi, taktiki təlimlər - döyüş şəraitində qərarvermə, koordinasiya və ekipaj üzvləri arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, məşq və praktika - dağlıq, bataqlıq və palçıqlı ərazilərdə sınaqlar, döyüş simulyasiyaları kimi mərhələlərdən keçməlidirlər. Tankçı olmaq həm də xüsusi iradə tələb edən vəzifədir. Çünki zirehli texnikanı idarə edən hər bir ekipaj üzvü ordunun döyüşdəki gücünün təmsilçisidir. Tank bölmələri təkcə texniki güc deyil, həm də döyüş ruhunun simvoludur. Zirehli maşının içində saatlarla hərəkət edən tankçılar yalnız öz iradələrinə güvənmirlər, eyni zamanda, Vətən sevgisini də qəlblərində daşıyırlar. Onlar poladdan hazırlanan texnikanın içində polad iradə daşıyan igidlərdir. Tank bölmələrinin gücü, manevr qabiliyyəti və döyüş meydanındakı rolu hər bir əməliyyatın uğurunda mühüm yer tutur. Azərbaycan Ordusunun digər bölmələri kimi, tank bölmələrinin heyətləri də göstərdikləri qəhrəmanlıqlarla tarixə adlarını qızıl hərflərlə yazdırdılar.

**Tamilla HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# 3 oktyabr 1993-cü il: Dövlətçilik tariximizin dönüş nöqtəsi

***Tarixi şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, dövlətin həyatında əvəzolunmaz rola malikdir. Bəşər tarixində milli liderliklə siyasi liderliyin birləşməsi nadir haldır. Belə şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycanın dövlətçilik memarı və qurucusu Ümummilli Lider Heydər Əliyev də olub. Ulu Öndər Heydər Əliyev xalqın yaddaşında əbədi olaraq xilaskar, qurucu və müdrik dövlət başçısı kimi yaşayıb, yaşayır və yaşayacaq da.***

Müstəqilliyin bərpasının ilk illəri dövlətçiliyimizin mövcudluğu üçün ciddi təhlükələr yaranmışdı. Sovet İttifaqının dağılması ilə Azərbaycan müstəqillik qazansa da, reallıqda daxili hərc-mərclik, özbaşınalıq və qeyri-peşəkar idarəetmə, siyasi ambisiyaların milli maraqlardan üstün tutulması dövləti labüd təhlükəyə aparırdı. Vətəndaş müharibəsi təhlükəsi real xarakter alırdı. Belə bir şəraitdə xalqımız qurtuluşu Ulu Öndər Heydər Əliyevdə gördü.

Azərbaycan xalqı əldə etdiyi müstəqilliyin qorunması üçün əvəzsiz lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev, xalqın və respublikanın hakim dairələrinin təkidli tələbini qəbul edərək Bakıya gəldi.

Respublikanın müstəqilliyi qorundu, ölkədə tüğyan edən ictimai-siyasi böhran aradan qaldırıldı, inkişafın təməli qoyuldu. Müstəqilliyimizin gerçəkləşməsi və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişaf təmin edildi. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi və tənəzzülə uğramasının qarşısının alınması, yeni dövrün tələblərinə uyğun tərzdə islahatların həyata keçirilməsi önəmli idi ki, Ulu Öndər Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi. Ölkəmizdə yeni iqtisadi mühit formalaşdı.

1993-cü il oktyabrın 3-nə təyin edilmiş prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün qurtuluşa gedən yolun başlanğıcı idi. Xalq öz seçimini etdi və Ulu Öndər Heydər Əliyevi Prezident seçdi. Həmin taleyüklü seçimlə bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu.

Seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini qazanan Ulu Öndər 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içdi: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Ulu Öndər dövlət başçısı seçildikdən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi əsaslı şəkildə sürətləndi. Ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparıldı, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik formalaşdı. Dövlət çevrilişlərinin qarşısı alındı, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirildi.




1994-cü ildə Ermənistan-Azərbaycan arasında mövcud olmuş hərbi münaqişədə atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Ordusu üçün yeni inkişaf mərhələsi başladı. Bu uzaqgörən siyasət nəticəsində ordu ilə bərabər, dövlətimiz üçündə yeni bir dövrün başlanğıcı oldu. İkinci Qarabağ müharibəsinin böyük Zəfərinin başlanğıcı həmin dövrlə səsləşir.

Ümummilli Lider Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü tarixi bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin fenomeni idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, peşəkar rəhbər, xalqın məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir.

Ulu Öndər Heydər Əliyevin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun dərin nitqi konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu Öndər fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi.

Ulu Öndər Heydər Əliyevin siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, habelə sosial-iqtisadi tərəqqiyə nail olunması kimi taleyüklü məsələlərdə uğurla sınaqdan çıxmışdır.

Azərbaycanın dünya miqyasında tanınması, hər şeydən əvvəl, Ümummilli Lider Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır. Dahi şəxsiyyətin yürütdüyü təcrübəli və müdrik siyasət sayəsində qısa müddət ərzində ölkəmizin xarici siyasət sahəsində böyük dönüş yarandı və uğurlar əldə olundu. Dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları Azərbaycana ciddi diqqət yetirməyə başlamış və ölkəmiz beynəlxalq münasibətlər sisteminin suveren aktoruna çevrilmişdi.

Qərbə inteqrasiya üçün Ulu Öndər Heydər Əliyev ən çətin anlarda belə yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi. Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişi məhz bu böyük insanın iradəsi və qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Ulu Öndər Heydər Əliyevin neft strategiyasının təcəssümü olan "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin 13 neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" sonrakı illərdə daha 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmış, 1997-ci ildə Azərbaycan nefti Bakı-Novorossiysk neft kəməri ilə, 1999-cu ildə isə Bakı-Supsa neft kəməri ilə dünya bazarına çıxarılmışdır.

1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. "Əsrin Müqaviləsi"nin imzalanması tarixi hadisə və dönüş nöqtəsi idi. Azərbaycanın "Əsrin Müqaviləsi"ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

Ulu Öndər Heydər Əliyev qısa müddətdə ölkəyə investisiya axınını stimullaşdıran müasir innovativ inkişaf modelinin gerçəkləşdirilməsinə nail olmuşdur. Bu model sahibkarlığa, sərbəst rəqabətə yol açan, liberallığı özündə ehtiva edən və sosialyönümlü mahiyyət daşıyan iqtisadiyyat modeli idi.

Ümummilli Liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. 1995-ci ildə müstəqil Azərbaycanın parlamentində keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır.

Milli ideologiyanın yaradılması Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Ulu Öndər "azərbaycançılığı" bir ideologiya olaraq irəli sürməklə, ölkənin dağılması, ərazisinin etnik əlamətlərə görə parçalanması təhlükəsinin qarşısını almaq vəzifəsini icra etdi. Ümummilli Lider bu ideya ilə bağlı əvvəlki 200 ilə yaxın bir dövr ərzində aydın düşüncə sahiblərimizin ortaya qoyduğu çoxsaylı fikirləri yaradıcı şəkildə inkişaf etdirərək azərbaycançılıq məfkurəsinə yeni bir ideoloji məzmun verdi.

Heydər Əliyev milli varlığımızın ideya təməli olan azərbaycançılıq haqqında belə demişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə, mentalitetinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adətlərini yaşatmalıyıq".

Ulu Öndər dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparmışdır. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli Lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı Sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin fonunda ölkənin siyasi-hüquqi sistemində müsbət mənada əsaslı dəyişikliklər oldu. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlar atıldı: məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsi, Ombudsman və digər mühüm təsisatların yaradılması, ölüm hökmünün ləğvi və onlarla digər bu kimi islahat xarakterli demokratik təşəbbüslər bilavasitə Heydər Əliyevin gərgin əməyinin nəticəsidir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması faktını beynəlxalq təşkilatların siyasi gündəliyinə gətirmişdir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursunun mühüm prioritetlərindən birini Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin beynəlxalq hüquq normaları əsasında, yəni, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsini təşkil etmişdir. Məhz Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi və ardıcıl səyləri nəticəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmış, məsələnin mahiyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Ulu Öndərin bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail olmuşdur.

Bu gün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir.

Müstəqil Azərbaycanın dövlətçilik tarixində 3 oktyabr tarixi qürurlu bir mərhələnin başlanğıcı, dövlətçilik tariximizin dönüş nöqtəsidir. Böyük tarixi şəxsiyyət Heydər Əliyevin dediyi kimi: "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir".

**Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"**

## 4 Oktyabr - Cəbrayıl Şəhəri Günü

# “Ordumuz, Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, qəhrəmanlıq göstərmişdir və işğalçıları Cəbrayıl şəhərindən qovmuşdur”

**(Əvvəli 1-ci səhifədə)**



Tarixi ərazilərimizdən biri olan Cəbrayıl rayonu öz milli mədəni irsi ilə yanaşı, faydalı qazıntıları və qiymətli materialları ilə də zəngindir. Belə ki, hələ işğaldan əvvəl Cəbrayıl dəmir filizi ilə yanaşı, sement, mərmər, mişar daşı və digər qiymətli materialları ilə zəngin olub. Erməni işğalından əvvəl burada yaşayan soydaşlarımız əsasən heyvandarlıq, əkinçilik, üzümçülük və digər kənd təsərrüfatı işləri ilə məşğul olublar. Rayonda 8 müxtəlif sənaye müəssisəsi, çoxlu sayda kolxoz və fabriklər fəaliyyət göstərib.

Cəbrayıl rayonu Birinci Qarabağ müharibəsi dövründə 1993-cü il avqustun 23-də Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunub. Düşmən işğalı ərəfəsində rayon 1 şəhər, 4 qəsəbə və 92 kənddən ibarət olub. İşğal nəticəsində yüzlərlə tarixi abidə, mədəniyyət ocağı düşmən terrorizmi nəticəsində dağıdılıb. Mənfur qonşularımızın terror əməlləri Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları məbləğində ziyan vurub. 1050 kvadrat kilometri əhatə edən 52000 nəfərin yaşadığı rayon ərazisi və bu ərazidəki 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, 100-ə yaxın kənd ermənilərin işğalına məruz qalaraq vəhşicəsinə dağıdıldı. Birinci Qarabağ müharibəsində Cəbrayıl rayonundan 362 nəfər şəhidlik zirvəsinə ucalıb, 191 nəfər əlil qalıb. 6 nəfər rayon sakini dövlət başçısı tərəfindən “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Öz doğma evindən didərgin düşən məcburi köçkünlər Azərbaycan Respublikasının tərkibindəki 58 rayonda müvəqqəti məskunlaşıb, çadır düşərgələri və yaşayış məntəqələrində yaşayıblar. 1994-cü ilin əvvəlində Azərbaycan Ordusunun keçirdiyi uğurlu Horadiz əməliyyatı zamanı Cəbrayılın Cocuq Mərcanlı kəndi işğaldan azad edilib. 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun hərbi qulluqçuları Lələtəpə yüksəkliyini azad etdikdən sonra Cəbrayılın Cocuq Mərcanlı kəndi tam nəzarətə götürülüb. Aprel döyüşləri zamanı cənub cəbhəsində Cəbrayıl ərazisi və Araz çayı boyunca yerləşən bəzi kəndlərin təhlükəsizliyinin təmin olunması məqsədilə bir neçə strateji yüksəklik də bölmələrimiz tərəfindən azad olunub.

Azərbaycan xalqını Cəbrayılına qovuşduran onun tam işğaldan azad edilməsi ilə nəticələnən İkinci Qarabağ müharibəsi 2020-ci il sentyabrın 27-də başladı. 44 günlük haqq savaşımız zamanı təkcə Cəbrayıl ərazisində aparılan hərbi əməliyyatlar nəticəsində 1 şəhər (Cəbrayıl) olmaqla, işğalda olan kəndlər bölmələrimiz tərəfindən işğaldan azad edildi.

İkinci Qarabağ müharibəsi zamanı qanlı savaşların keçirildiyi ən çətin relyefli ərazilərimizdən biri elə Cəbrayıl oldu. Düşmən burada xeyli sayda hava hücumundan müdafiə sistemləri yerləşdirmiş, ərazilər bir neçə zolaqlı mühəndis-istehkam xəttindən ibarət (müxtəlif istehkam, mina və manelər) idi. Bu da onu göstərirdi ki, düşmən bu cəbhədə döyüşlərə amansızlıqla müqavimət göstərməyə çalışırdı. Düşmənin qorxusu və təşvişi əbəs yerə deyildi. Cəbrayılın işğaldan azad edilməsi bölmələrimiz üçün digər tarixi ərazilərimizə yolu açır, düşmənin hərəkətini izləməyimiz üçün əlverişli şərait yaradırdı. Cəsur Azərbaycan əsgəri hər gün irəliləyir, düşmən manelərini müvəffəqiyyətlə yarır, yüksək fədakarlıq və igidlik göstərərək düşməni döyüş meydanında darmadağın edirdi. Cəbrayıl əməliyyatının əhəmiyyəti, eyni zamanda, ondan ibarət idi ki, Cəbrayıl azad olunandan sonra o vaxt işğal altında olan digər rayonlara uğurlu əks-hücumumuz mümkün olmuşdur. Cəbrayıldan sonra Azərbaycan Ordusunun Xocavənd rayonunun cənub kəndləri və strateji Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar keçirməsi üçün geniş imkanlar yarandı. Üstəlik Zəngilan, daha sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi və Laçın dəhlizi Azərbaycanın nəzarətinə götürüldü.

Hər gün bir və ya bir neçə kəndin azad olunması, düşmənin xeyli sayda şəxsi heyəti və silah-sursatının məhv edilməsi və bölmələrimiz tərəfindən qənimət olaraq ələ keçirilməsi xəbərlərini eşidirdik. Cəbrayılın azad olunması zamanı onun tarixi ərazilərindən biri olan qədim Xudafərin körpüsünün işğaldan azad edilməsi ilə burada üçrəngli şanlı bayrağımızla hərbi qulluqçularımızın Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə məruzə etməsi tarixi səhifələrimizin ən şanlı dövrlərindən biri olaraq əbədiləşdi. Videokadrlarda gördüyümüz kimi, Xudafərinin işğaldan azad olunması zamanı Arazın o tayında yerləşən soydaşlarımızın da qəlbi Azərbaycan əsgəri ilə birgə döyünür, igid döyüşçülərimizi qanı-canı bir olan azərbaycanlılarımız qələbəyə səsləyirdilər. Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilmişdir. Sözügedən Sərəncama əsasən 4 oktyabr Cəbrayıl Şəhəri Günü kimi müəyyən olunub.

4 oktyabr tarixi Cəbrayıl Şəhəri Günü olaraq tarixləşdi. İkinci Qarabağ müharibəsi başa çatdıqdan cəmi 6 gün sonra - 2020-ci il 16 noyabr tarixində dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonuna səfər etdilər. Dövlətimizin başçısı şəhər mərkəzində və Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırdı.

Cəbrayılın işğaldan azad edilməsi çətin, lakin bir o qədər də vacib bir tapşırıq idi. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla rayonun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, yüksək igidlik və fədakarlıq göstərmiş on minlərlə hərbi qulluqçumuz "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunub. Cəbrayılın azad olunması Azərbaycan Ordusunun keçirdiyi ən uğurlu hərbi əməliyyatlardan və yazdığı igidlik dastanlarından biridir. Qazanılan bu qələbə qalib ordumuzun hər bir fərdinin fədakarlığının, igidliyinin göstəricisidir.




Düşmən işğalından xilas edilən ərazilərimizdən olan Cəbrayıl erməni vandalizmi, terrorizmi nəticəsində ciddi zərərlər görüb, maddi-mədəni irsimiz vəhşicəsinə hücumlara məruz qalıb. Erməni vandalizmi nəticəsində Dağ Tumas kəndinin yaxınlığında yerləşən "Divlər Sarayı" mağarası, Qalacıq kəndindəki "Məscid Təpəsi", "Canqulu" və "Qumtəpə" kurqanları, Diri dağındakı "Mazannənə", "Mərmərnənə" məqbərələri kimi arxeoloji, Dağ Tumas kəndindəki "Başıkəsik Günbəz", Sirik kəndindəki "Qala", Diri dağındakı "Qız qalası", Xudafərin körpüsü, Çələbilər kəndindəki Məscid kompleksi, rayon mərkəzindəki "Sultan Məscid hamamı", Şıxlar kəndindəki "Dairəvi Türbə", Xubyarlı kəndindəki "Dairəvi" 8 guşəli türbələr və məqbərələr, türk qəbiristanlığındakı türbə və məqbərələrin hər biri işğal zamanı məhv edilmiş və ya dağıntıya məruz qalmışdır.

Bu gün dövlət başçımızın rəhbərliyi ilə görülən bərpa-quruculuq işləri elə doğma Cəbrayılımızda da yüksək sürətlə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sənaye parkının prioritet fəaliyyət istiqaməti olaraq, logistika və ticarət mərkəzləri, gömrük, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Bir sözlə, "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması regionla yanaşı, Cəbrayıl rayonunun da inkişafı və tərəqqisi üçün önəmli proseslərdən biridir ki, ölkənin həm bərpa-quruculuq, həm də iqtisadi sahəsinə güclü təkan verəcək.

Bundan başqa işğal başa çatdıqdan sonra 2021-ci ilin 4 oktyabr tarixində Cəbrayıl yarımstansiyasının istifadəyə verilməsi önəmli hadisələrdəndir. Həmçinin "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Cəbrayıl rayonunun Soltanlı, Sarıcalı, Maşanlı, Böyük Mərcanlı və Karxulu kəndlərində xarici elektrik təchizatının yaxşılaşdırılması məqsədilə yeni layihə də həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyul tarixli Qərarı ilə "Cəbrayıl şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilib. Plana əsasən, Cəbrayılın bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3800 nəfərin şəhərdə məskunlaşacağı qeyd olunub, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub.

Uzun illər işğal altında olan torpaqlarımıza həyat yenidən qayıdır. Cəbrayıla (Cocuq Mərcanlıya) qayıdış hələ 2016-cı ilin Aprel döyüşlərindən sonra başlamışdı, bu gün o yerlərin həqiqi sakinləri bütöv Azərbaycanın qalib xalqının nümayəndələri olaraq öz doğma yurdlarına Böyük Qayıdış edirlər. Bu gün Cəbrayıldan da keçən Zəfər yolumuz bizi bir zamanlar işğalda olan ata-baba yurdumuza qovuşdurur. Minlərlə məcburi köçkünümüz buradan keçərək öz doğma yurduna, rahat və firavan həyatına qayıdıb. Öz doğma yurd yerlərinə qayıtmış soydaşlarımızın bu gün üzlərində qürur, gözlərində sevinc hissi doğur. Xalqımızın arzuları gerçəkləşir, torpaqlarımızda həyat canlanır, ocaqlarımızda uşaq səsləri eşidilir, gələcəyin parlaqlığı sezilir. Cəbrayılımızın hər daşı, hər qayası bizə qələbənin şirinliyini, vətənpərvərliyin aliliyini xatırladır. Hər qarışı ata-babalarımızın, şəhidlərimizin qanı ilə yaşadılaraq, gənc nəslə ötürülən bu torpaqlar bu gün gənc Vətən müdafiəçilərimiz tərəfindən qorunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2024-cü ilin oktyabr ayının 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak ediblər, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim ediblər. Dövlətimizin başçısı cəbrayıllılar qarşısında çıxış edərək demişdir: "Cəbrayılın azad olunmasının çox böyük əhəmiyyəti vardır. Çünki İkinci Qarabağ müharibəsi dövründə işğalçılardan azad edilmiş birinci şəhər idi. O vaxta qədər artıq müharibə bir həftə idi ki, gedirdi və 20-yə yaxın kənd azad edilmişdi, o cümlədən Cəbrayıl rayonunun kəndləri. Ancaq şəhər olaraq birinci şəhər Cəbrayıl olmuşdur və Cəbrayıl əməliyyatı xüsusi əhəmiyyətə malik idi. Ordumuz, Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, qəhrəmanlıq göstərmişdir və işğalçıları Cəbrayıl şəhərindən qovmuşdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində əsl qəhrəmanlıq, fədakarlıq, rəşadət göstərmişdir. Biz şəhidlərimizlə əbədi fəxr edəcəyik. Əlbəttə, Cəbrayıl şəhərinin azad olunması həm müharibənin sonrakı gedişatına müsbət təsir göstərmişdir, eyni zamanda, Ordumuzun və ümumiyyətlə, xalqımızın mənəvi ruhunu yüksəltmişdir. Bizim hamımızda inam var idi ki, bu müharibə bizim Zəfərimizlə başa çatacaq və hər yaşayış məntəqəsinin azad edilməsi, o cümlədən şəhərlərimizin azad edilməsi bu inamı daha da artırırdı".

Bu gün Qarabağımızın hər nöqtəsində həm tariximizin izi, həm də gələcəyimizin işığı var. Hər birimiz qalib xalqın mənsubu olaraq bilirik ki, Azərbaycanımızın hər bir guşəsi dirçəlişin və firavanlığın zirvəsinə çatacaq. Bu qürur xalqımızın gələcəyini daha parlaq, inkişaf yolunu isə işıqlandıracaq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

(Əvvəli 1-ci səhifədə)

# "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən Ümummilli Lider Heydər Əliyevin siyasi kursu layiqincə davam etdirildi. Aparılan məqsədyönlü islahatlar nəticəsində Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətinə malik ordu səviyyəsinə çatdı.

Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq başlayan İkinci Qarabağ müharibəsində ordumuz yüksək hazırlıq səviyyəsinə malik olduğunu bir daha nümayiş etdirdi. Hərbi qulluqçularımız bu müharibədə misilsiz şücaət və qəhrəmanlıq nümunələri göstərərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində üzərinə düşən tarixi missiyanı qüsursuz yerinə yetirərək xalqımıza Böyük Qələbənin sevincini yaşatdı.

Dövlətimizin başçısı yaşayış məntəqələrimizin işğaldan azad edilməsi xəbərini bir müjdə olaraq xalqımıza çatdırır, tez-tez işlətdiyi məşhur "Qarabağ Azərbaycandır və nida işarəsi" şüarı ilə həm xalqımızın qələbə ruhunu, həm də milli birliyimizi bir daha nümayiş etdirdi.

Müharibədə yaralanan hərbi qulluqçularımızın müalicə aldıqdan sonra yenidən döyüşlərə qatılması onlarda vətənpərvərlik ruhunun nə qədər yüksək səviyyədə olduğunu sübut etdi. Ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canlarından keçərək qanları ilə tarix yazmış şəhidlərimizin, qəhrəman hərbçilərimizin adları xalqımızın qəlbində əbədi yaşayır və yaşayacaqdır. Onların keçdiyi bu şərəfli və tarixi yol gənc nəsil üçün bundan sonra da örnək olacaqdır.

Bu gün dövlətimiz tərəfindən şəhid ailələrinə və müharibədə sağlamlıqlarını itirənlərə xüsusi diqqət göstərilir, onların problem və qayğılarının həlli istiqamətində müvafiq islahatlar aparılır.

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun taktiki üstünlükləri və texnoloji imkanları mühüm rol oynadı. Döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun arsenalında olan müasir vasitələrdən - dron, artilleriya sistemləri və hərbi kəşfiyyat vasitələrindən geniş istifadə olundu. Bu da döyüş əməliyyatlarının dəqiq və effektiv aparılmasına imkan verdi, Azərbaycan Ordusunun həm taktiki, həm də strateji səviyyədə üstünlüyünü təmin etdi.

2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında üçtərəfli Bəyanat imzalandı. Bununla da Prezident İlham Əliyev xalqa müraciət edərək dedi: "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

Doğma Qarabağımızın azad olunması, "Qarabağ Azərbaycandır və nida işarəsi" şüarının reallığa çevrilməsi dövlətimizin gücünü və xalqımızın milli qürurunu bir daha bütün dünyaya nümayiş etdirdi.

Bu gün Azərbaycan xalqı 5-ci ildönümü qeyd etdiyimiz İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərin əhəmiyyətini, Ali Baş Komandanın qətiyyətini, sərkərdəlik bacarığını, eləcə də hər bir uğurun arxasında dayanan qəhrəmanlıq və şücaət nümunələrini yüksək qiymətləndirir. Müharibənin başa çatmasına baxmayaraq, Azərbaycan Ordusunun döyüş qabiliyyəti durmadan artırılır, hərbi qulluqçularımızın peşəkarlığı yüksəldilir, ölkəmizin beynəlxalq mövqeyinin daha da gücləndirilməsi istiqamətində mühüm addımlar atılır.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etmək üçün həyata keçirdiyi uğurlu döyüşlər qəhrəmanlıq tarixidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında vurğulayırdı: "...Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır".

Böyük Zəfərin qazanılması Azərbaycanın hərb tarixində mühüm bir mərhələ oldu. Bu Zəfər xalqımızın iradəsinin, birliyinin və haqq yolundakı əzminin simvolu oldu.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Müasir müharibələrdə psixoloji itkilər



Postmüharibə dövrü döyüşlərin qazandırdığı problemlərlə gündəmdə olur. Müasir müharibə iştirakçıları döyüş yolundan və onun çətinliyindən asılı olaraq psixoloji sağlamlıq problemləri yaşayırlar. Sanitar itkilərlə yanaşı, psixoloji itkilər də qaçılmazdır. Psixoloji itkilər gələcəkdə bir çox fəsadlara yol aça bilir ki, bu da veteranın həm özünün, həm də ətrafının müəyyən çətinliklər yaşamasına səbəb olur. Müasir ordu sənayesi silahları öldürməkdən çox, ömürlük şikəst edəcək qabiliyyətə hesablayır. Hər iki tərəf rəqibinin döyüşçüsünü öldürməkdən daha çox illər boyu süründürəcək yara vurmağa və yaxud əlil etməyə meyillidir. Çünki müharibə əlilləri, həmçinin psixoloji xəstəliyə yoluxan şəxslər olaraq cəmiyyətə mənəvi-psixoloji zərbədir. Burada dövlətə dəyən maddi ziyanı da nəzərə almaq lazımdır. Əlillərin reabilitasiyası, mütəmadi həkim nəzarəti, tibbi preparatlar, əlillik, fiziki məhdudiyyətli şəxslərə göstərilən qayğı - hər biri müəyyən maddi resurslar tələb edir. Həmçinin əlillərin yaşadıqları çətinliklər və sarsıntılar yalnız ailələrə deyil, cəmiyyətə də psixoloji təsir göstərir.

Bunu AZƏRTAC-a açıqlamasında hərbçi, psixoloq Amil Məhərrəmoğlu deyib.

O bildirib ki, postmüharibə dövründə veteranlar əsasən depressiya, narahatlıq və maddə asılılığı da daxil olmaqla müxtəlif psixoloji, qeyri-adekvat vəziyyətlərə həssaslıq nümayiş etdirirlər. Həmin həssaslıq döyüş stres reaksiyasına (DSR) aid edilir və özünü uzunmüddətli döyüş əməliyyatlarında iştirak etmiş şəxslərdə daha qabarıq göstərir: "Amerika psixoloqları İkinci Dünya müharibəsi zamanı müəyyən ediblər ki, cəbhə xəttində bir əsgər üçün qırılma nöqtəsi döyüşün intensivliyindən və tezliyindən asılı olaraq, 60-240 gün arasındadır. Qırılma nöqtəsi nədir? Hərbçilərdə buna uzunmüddətli stres halında psixoloji təslimiyyət halı demək olar. Məlumat üçün deyə bilərik ki, psixoloji təslimiyyət halı - apatiya, dissosiativ reaksiya, öyrənilmiş çarəsizlik və s. bunun kimi elmi terminlərə yaxın anlayışdır. Belə ki, insan psixologiyası stres, təzyiq və ya mənfi təcrübənin birləşməsindən qaynaqlanan ağır psixi yüklənmələr zamanı "gücü çatmayanı" qəbul etmir. Orduda məşhur olan "ayıq ol, sağ qal" fundamental deyimi hərbçini fasiləsiz stres altında saxlaya bilər. Eyni zamanda, bu deyim hərbçinin daimi olaraq təhdid altında olmasından xəbər verir. Döyüş zamanı isə bu deyimdə "ayıq ol" ifadəsi qüvvədən düşür. Raket artilleriya silahlarının, pilotsuz uçuş aparatlarının və aviasiya bombardmanının intensivliyi döyüşün şiddətini artırır. Belə olduqda, inkişaf etmiş ölkələrin orduları da daxil olmaqla bütün döyüş əməliyyatlarına cəlb edilmiş heyətdə psixoloji itkilərin olması təbii haldır. Lakin həmin itkilər statistik olaraq döyüş növündən və düşmən qüvvələrdən asılı olaraq dəyişə bilir".

Amil Məhərrəmoğlu diqqətə çatdırıb ki, psixoloji itkilərə təsir edən əsas amillər əsgərin təchizatı (qoruyucu gödəkcə, dəbilqə, fərdi təminatı, silahı), peşəkarlıq səviyyəsi, döyüş apardığı silah-texnika cəhətdən, döyüşə psixi və fiziki hazırlığı, döyüşün növü (hücum, müdafiə), döyüşün şəraiti (baş verdiyi coğrafiya, relyef,), fərdin şəxsi keyfiyyətləridir (temperamenti, psixotipi, dünyagörüşü və s.). Psixoloji itkilər dedikdə isə ilkin olaraq döyüş zamanı açıq yara almayan, qorxu, təşviş, həyəcan keçirən şəxsi heyət nəzərdə tutulur. "Bir çox hallarda müharibə bitdikdən sonra təsiri uzun müddət davam edə bilir. Beynəlxalq standartlarda Post Travmatik Stress Pozuntusu (PSTP) adlanır. PSTP müxtəlif müharibələrdə fərqli faizlərlə ifadə olunur".

Ölkəmizə gəldikdə hərbçi, psixoloqun sözlərinə görə, Birinci və İkinci Qarabağ müharibələrinə diqqət yetirsək görərik ki, 1-ci dövr daha çox ağrı-acılı hadisələrlə yadda qalıb. "Əvvəla, 1990-cı illərdə "psixoloji travma" və "psixoloji dəstək" anlayışları Azərbaycanda yalnız bir ovuc mütəxəssisə məlum idi. İkincisi, psixologiyaya vaxt yox idi, bütün səylər müharibə qasırğası ilə parçalanmış Sovet İttifaqının xarabalıqlarında fiziki sağ qalmağa yönəlmişdi. Rusiyada 1990-cı illəri adətən "vəhşi doxsanıncı illər" adlandırırlar. Azərbaycanda bu ifadə keçərli deyil. Biz onu, sadəcə, rəmzi olaraq "məyusluq onilliyi" adlandıra bilərik", - deyə o qeyd edib.

Amil Məhərrəmoğlu vurğulayıb ki, Vətən müharibəsində aktiv döyüşlər 44 gün ərzində baş verib. Bu isə bir əsgərin istirahətsiz döyüş aparma gücündə olan normal müddətdir: "İkinci Qarabağ müharibəsindən sonra az da olsa, psixoloji itkilərə rast gəlmək mümkündür. Ölkəmizdə bu sahədəki rəqəmlərə "YAŞAT" Fondunun hesabat sənədlərində rast gəlmək olar. Azərbaycan Ordusunda döyüşçülər arasında barotravma halları, yeni ətrafda yaranan qaz və hidrotəzyiqin kəskin fərqi nəticəsində hüceyrələrin fiziki zədələnməsi prosesi, qapalı kəllə-beyin travması, qəlpə təsiri ilə yaralanma (həlak olma) olub. Barotravma diaqnozu, əsasən, artilleriya mərmilərinin partlaması zamanı yüksək təzyiqin ağciyərlərin, qulağın, orta qulağın və beyindaxili hava boşluqlarının fiziki zədələnməsi ilə nəticələnirdi. Postmüharibə dövründə veteranlar arasında aparılan araşdırmalara görə, iştirakçıların yaddaşında qalan müharibə səhnələri, əsasən, artilleriya və ya minomyot mərmilərinin partlaması, həlak olan yoldaşlarına görə günahkarlıq, sağ qaldıqları üçün özünüqınama kimi depressiv hisslər müharibədən 5 il keçməsinə baxmayaraq, hələ də aktualdır".

Mütəxəssisin sözlərinə görə, təəssüflər olsun ki, heç bir dövrdə bu sahədə elmi tədqiqatlar aparılmayıb. Lakin belə halların az-az baş verməsinə baxmayaraq, əlimizdə olan məhdud məlumatlar günümüzdə bu sahənin dərindən araşdırılmasına və əsaslı öyrənilməsinə ehtiyac olduğunu göstərir.

Görkəmli şəxsiyyətlər

# Çar, AXC və İran ordusunda xidmət edən general-mayor Cavad bəy Şıxlinski

***Cavad bəy Məmmədağa oğlu Şıxlinski 1874-cü il yanvarın 3-də Qazax qəzasının Aşağı Salahlı kəndində anadan olub. Tiflis Kadet Korpusunda təhsil aldıqdan sonra 1892-ci il avqustun 28-də Sankt-Peterburqdakı Konstantinovski Artilleriya Məktəbinə qəbul olub. Buranı birinci dərəcə ilə (fərqlənmə diplomu ilə) bitirdikdən sonra 1894-cü il avqustun 8-də 39-cu artilleriya briqadasına "podporuçik" rütbəsində təyinat alıb və burada təlim dəstəsində təlimatçı vəzifəsinə təyin edilib.***





1895-ci il avqustun 18-də Qazax qəzasına göndərilib. 1897-ci ilin noyabrından 3-cü batareyanın baş zabiti olub. Qarsda və Aleksandropolda xidmət edib. 1898-ci il iyulun 1-də "poruçik", 1901-ci il avqustun 19-da "ştabs-kapitan", 1909-cu il yanvarın 1-də isə "kapitan" rütbəsinə yüksəlib. 1904-cü il martın 28-dən Qarsda yerləşən 5-ci batareyanın komandiri təyin olunub. Həmçinin həmin ilin martın 28-də 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunub. Nümunəvi xidmətlərinə görə 1908-ci il martın 16-da 3-cü dərəcəli "Müqəddəs Anna" ordeni, 1911-ci il martın 2-də 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunub. 1912-ci ildə 39-cu artilleriya briqadasının 1-ci rotasının komandiri olub. 1913-cü il fevralın 21-də "Romanovlar sülaləsinin 300 illiyi" münasibətilə xatirə medalı və "podpolkovnik" rütbəsi alıb.

1913-cü ildə 23-cü iriçaplı artilleriya diviziyonunun komandiri təyin olunub. Birinci Dünya müharibəsində iştirak edib. Bu dövrdə iki dəfə Ali Baş Komandanlığın yüksək mükafatı ilə təltif olunub. 1914-cü il fevralın 15-də 2-ci dərəcəli "Müqəddəs Anna", 1915-ci il yanvarın 31-də 4-cü dərəcəli "Müqəddəs Vladimir", 1915-ci il sentyabrın 29-da 4-cü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və bantla) ordenləri ilə təltif olunub.

1916-cı il fevralın 10-da isə 45-ci artilleriya briqadasında 4-cü batareyanın komandiri təyin olunub. 1916-cı il oktyabrın 21-də 2-ci dərəcəli "Müqəddəs Anna" (qılıncla), 1916-cı il dekabrın 2-də 2-ci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla) ordeni ilə təltif olunub. 1917-ci ildə 45-ci artilleriya briqadasının 1-ci diviziononuna komandir təyin olunub. 1917-ci il aprelin 22-də "polkovnik" rütbəsi alıb. 1917-ci il oktyabrın 3-də 3-cü dərəcəli "Müqəddəs Vladimir" (qılıncla) ordeni ilə təltif olunub.

Polkovnik Cavad bəy Şıxlinski 1917-ci ilin sonunda Azərbaycana qayıdıb. Qafqaz Cəbhəsinin Baş Komandanı general M.A.Prjevalskinin 11 dekabr 1917-ci il tarixli 155 nömrəli əmrinə əsasən yeni yaradılmış Müsəlman Korpusunda xidmətə başlayıb, 1-ci artilleriya briqadasının komandiri təyin edilib. 1918-ci il iyulun əvvəllərində korpus ləğv edilib və onun hissələri Azərbaycana yeni gələn türk diviziyaları ilə birlikdə Nuru Paşanın rəhbərliyi ilə yeni yaradılan Qafqaz İslam Ordusunun tərkibinə daxil olub, 1-ci artilleriya alayının komandiri təyin edilib.

Xidmətini Azərbaycan Xalq Cümhuriyyəti ordusunda davam etdirən Cavad bəy 1918-ci ilin yayında Əlahiddə Azərbaycan Korpusunda 2-ci piyada alayının komandiri təyin olunub. Qafqaz İslam Ordusunun tərkibində döyüşlərdə iştirak edib.1918-ci il sentyabrın 3-də döyüşlərdə göstərdiyi şücaətə görə Nuru paşa tərəfindən medalla təltif olunub. O, Nuru Paşanın əmri ilə 19 sentyabr 1918-ci ildə Gəncə şəhərinin komendantı təyin olunub. Hərbi Nazirin 31 dekabr 1918-ci il tarixli 39 nömrəli əmri ilə 27 dekabr 1918-ci il tarixdən Artilleriya İdarəsi rəisinin Artilleriya Qoşunlarının təftişi üzrə müavini vəzifəsinə təyin olunub. 1919-cu ilin fevralın 17-də Hərbi Nazirin əmri ilə Gəncə qarnizonunun rəisi vəzifəsinə təyin olunub. 1919-cu il fevralın 22-də Birinci piyada diviziyasının komandiri təyin olunub. Diviziyanın formalaşmasında və möhkəmləndirilməsində göstərdiyi xidmətlərə görə Nazirlər Şurasının 1919-cu il 25 iyun tarixli qərarı ilə Cavad bəy Şıxlinskiyə "general-mayor" ali hərbi rütbəsi verilib. 1919-cu il iyunun 27-də Hərbi Nazirin imzaladığı əmrlə iyulun 1-dən Gəncə şəhər qarnizonunun komandiri təyin olunub.

Cavad bəy 1919-cu ildə Azərbaycan Cümhuriyyəti hökumətinin qərarı ilə daşnakların Zəngəzur mahalında həyata keçirdiyi müsəlman qətliamlarının qarşısını almaq üçün yaradılmış Zəngəzur ekspedisiyasına komandir təyin olunub. Zəngəzur ekspedisiyası iki kolondan ibarət olub. Birinci kolona general-mayor Davud bəy Yadigarov, ikinci kolona isə polkovnik Vladimir Levestam başçılıq edib. Cavad bəy burada Qarabağla Zəngəzuru birləşdirən yolları ələ keçirmək məqsədilə hərəkətə başlayıb. Müxtəlif istiqamətlərdən irəliləyən həm birinci kolon, həm də ikinci kolon Dığ yaşayış məntəqəsinə doğru irəliləyib. Daha sonra isə Sultan bəy Sultanovun partizan dəstələri də bu ekspedisiyaya qoşularaq daşnaklara qarşı birgə mübarizə aparıblar.

1920-ci il aprelin 10-da Gəncə bölgəsində müdafiənin gücləndirilməsi üçün Müdafiə Naziri Səməd bəy Mehmandarovun əmri ilə 1-ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski Gəncə möhkəmləndirilmiş rayonunun rəisi təyin olunub.



Aprel işğalından sonra - may ayında Cavad bəy Şıxlinski, Cahangir bəy Kazımbəyli və Gəncə komendantı Məhəmməd Mirzə Qacar tutduqları vəzifələrindən azad olunublar. Azərbaycanın bolşeviklər tərəfindən işğalına etiraz olaraq Gəncə şəhərində yerləşən Azərbaycan hərbi hissələri və əhali üsyana başlayıblar. Gəncə üsyanın təşkilatçılarından biri də Cavad bəy Şıxlinski olub. O, bu üsyanda dağıdılmış artilleriya qurğularının bərpası və artilleriya işinin təşkilində məsul olub.



Ön cərgədə sağdan ikinci - Cavad bəy Şıxlinski

Üsyanın yatırılmasından bir neçə saat əvvəl Cavad bəy artilleriya atəşindən ağır yaralanıb. Daha sonra isə onu mühasirədən çıxarıb Aşağı Salahlı kəndinə aparıblar. Orada qalmaq təhlükəli olduğu üçün qohumu Mədət bəy Alqanov tərəfindən əvvəlcə Qarayazı meşəsinə daha sonra isə Tiflisə aparılıb.

Bir müddət sonra Tiflisi tərk edərək İrana gedib. Peşəkar hərbçi olduğu üçün Ərdəbil qarnizonunun komandiri təyin olunub. Lakin orada yaşadığı dövrdə bolşeviklər tərəfindən təqib olunduğu üçün Türkiyəyə mühacirət etməli olub.

Türkiyədə bir müddət qaldıqdan sonra Cavad bəy Şıxlinski yenidən İrana qayıdıb. Bir neçə il öncə İrana mühacirət etmiş və artıq orada ordunun polkovniki olan əmisi oğlu Məhəmməd Şıxlinskinin köməyi ilə İran ordusuna qoşulub. Cavad bəy İranda "polkovnik-leytenant" rütbəsi alıb, sonradan isə "polkovnik" rütbəsinə yüksəlib. O, fars dilini öyrənib və əvvəlcə İranın Məşhəd şəhərində artilleriya komandiri və Şərq Ordusu komandirinin müavini vəzifəsinə təyin edilib. Bir neçə il Məşhəddə qaldıqdan sonra Tehrana geri çağırılıb və İran ordusunda Zabitlər Klubunun rəhbəri vəzifəsinə təyin edilib.

Cavad bəy Şıxlinski (İranda Cavad ağa Şeyxli) 1959-cu ildə Tehranda dünyasını dəyişib. Onun məzarı Tehran yaxınlığındakı Rey şəhərində, İmamzadə Abdullah qəbiristanlığındadır.

Cavad bəy Şıxlinski Hüseyn Əfəndi Qayıbovun nəvəsi, tam artilleriya generalı Əlağa Şıxlinskinin qardaşı oğlu, Cahangir bəy Şıxlinskinin və polkovnik Rüstəm Şıxlinskinin qardaşı, yazıçı İsmayıl Şıxlının isə dayısıdır.

Cavad bəy Şıxlinski Zari xanım Əsədzadə adlı iranlı xanımla ailə həyatı qurub və onların üç övladı - Çingiz, Nazir (və ya Məhəmməd) adlı oğlu və Göhvər adlı qızı olub.

Böyük oğlu Çingiz Şeyxli mağaraçı və alpinistdir. İran ərazisində 500-dən çox mağara kəşf edib. İranda bu sahənin əsasını qoyanlardandır. 1946-cı ildə İranda ilk Mağaraçılıq Dərnəyinin həmtəsisçilərindəndir. Ömrünün 70 ilini mağaraların tədqiqinə həsr edib.

**"Azərbaycan Ordusu"**

## Türkiyə XİN:
## Naxçıvan Sazişinin imzalanmasının 16-cı ildönümünü qürurla qeyd edirik

Ortaq dəyərlərimizin və inteqrasiya iradəmizin təzahürü olan Türk Dövlətləri Təşkilatı regionda və onun hüdudlarından kənarda sülhə, rifaha və sabitliyə xidmət göstərməyə davam edəcək.

AZƏRTAC xəbər verir ki, bu ifadələr Türkiyənin Xarici İşlər Nazirliyinin 3 Oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günü münasibətilə açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "3 Oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günü və Türk Dövlətləri Təşkilatının qurucu sənədi olan Naxçıvan Sazişinin imzalanmasının 16-cı ildönümünü qürurla qeyd edirik".

## ANAMA:
## Şuşada tələ qurğusu aşkarlanıb





Şuşa rayonunun Kiçik Qaladərəsi kəndi ərazisində evlərin təmizlənməsi əməliyyatı zamanı partlayıcı tələ qurğusu aşkarlanıb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, evin damında sütuna və damın giriş qapısına tələ məftili vasitəsilə quraşdırılmış döyüş vəziyyətinə gətirilən 2 ədəd F-1 əl qumbaraları aşkarlanıb. Aşkar olunan tələ qurğu ANAMA-nın əməkdaşları tərəfindən zərərsizləşdirilərək ərazinin təhlükəsizliyi təmin edilib.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə icra edilən minatəmizləmə əməliyyatları zamanı mütəmadi olaraq tələ minaları, improvizə edilmiş partlayıcı qurğulara rast gəlinir. Bu məqsədlə ANAMA bir daha vətəndaşları təhlükəsizliyinə əmin olmadıqları ərazilərə, obyektlərə daxil olmamağa, tanımadıqları əşyalara toxunmamağa çağırır.

## Tarix yazan oğullar

# Şəhid baş leytenant Raqib Hüseynovun xatirəsinə həsr olunmuş mərasim keçirilib

Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksəlmiş Raqib Hüseynovun xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Mərasimdə Naxçıvan Şəhər İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin əməkdaşları, Ali Məclisin deputatları, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Naxçıvan Baş Gömrük İdarəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər idarəsinin əməkdaşları, hərbi qulluqçular, şəhidimizin ailə üzvləri və döyüş yoldaşları, Heydər Əliyev adına Hərbi Liseyin, Heydər Əliyev adına tam orta məktəbin və 4 nömrəli tam orta məktəbin müəllim və şagirdləri iştirak ediblər.

Əvvəlcə şəhid zabitin məzarı ziyarət olunub, üzərinə gül dəstələri düzülüb, ruhuna dualar oxunub. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edənlər 44 günlük Vətən müharibəsində əldə olunan qələbədən, şəhidlərimizin göstərdiyi şücaət nümunələrindən, həmçinin şəhid ailələri və döyüş əməliyyatları zamanı sağlamlıqlarını itirənlərə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan bəhs ediblər. Qeyd olunub ki, Vətən müharibəsi Azərbaycan xalqının şanlı tarixində əbədi qəhrəmanlıq səhifəsi kimi yazılıb. Bu Zəfər yolunda canından keçən şəhidlərimiz əsl mərdlik və igidlik nümunəsi göstərərək torpaqlarımızın ərazi bütövlüyü və suverenliyi uğrunda ölümsüzlüyə qovuşublar. Onların müqəddəs xatirəsi xalqımızın qəlbində daim yaşayacaq.






Raqib Hüseynov 28 iyun 1993-cü ildə Şahbuz rayonunun Mərəlik kəndində anadan olub. 2011-2015-ci illərdə indiki Heydər Əliyev adına Hərbi İnstitutda ali hərbi təhsil alıb. O da digər hərbi qulluqçularımız kimi, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində igidliklə iştirak edib. Onun Talış kəndi istiqamətində düşmənin müdafiə xəttinin yarılmasında böyük xidmətləri olub. Raqif 29 sentyabr 2020-ci ildə Talış kəndi istiqamətində gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirmiş baş leytenant Hüseynov Raqib Adil oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidimizin anası Rəna xanım çıxış edərək göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonda məktəblilər şəhidlərimizə həsr olunmuş və vətənpərvərlik ruhunda qələmə alınmış şeirləri bədii qiraət ediblər.

**Bəxtiyar ƏLİYEV**
**Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin mətbuat katibi**

# Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmətə qəbul davam edir




Müddətdən artıq həqiqi hərbi xidmətə sənəd qəbulu oktyabrın 25-dək regional sənəd qəbulu mərkəzlərində və elektron qaydada olmaqla iki formada həyata keçiriləcəkdir. Namizədlərin qeyd olunan üsullardan hər hansı biri vasitəsilə sənədlərini təqdim etmələri yetərli hesab olunur. Sənəd qəbulu mərkəzləri Gəncə şəhərində Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzində (Ünvan: Gəncə şəhəri, Nizami Gəncəvi prospekti 56), Bakı şəhərində isə Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda (Ünvan: Bakı şəhəri, Xətai rayonu, Polad Həşimov küçəsi 9a) fəaliyyət göstərəcək.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların hazırlığı kursu"na ən azı ümumi orta təhsilli, müddətli həqiqi hərbi xidmətini başa vurmuş 35 yaşınadək hərbi vəzifəlilər (zabit, gizir, miçman hərbi rütbəsi olanlar istisna olmaqla), eləcə də ixtisasını dəyişmək və ya artırmaq arzusunda olan Silahlı Qüvvələrdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmiş ("Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 156-cı maddəsinin "a" bəndinə (xidmət müddəti başa çatdığına görə), "q" bəndinə (ştat ixtisarına görə) əsasən ordu sıralarından ehtiyata buraxılmış) 40 yaşınadək hərbi vəzifəlilər və 30 yaşınadək qadın cinsli vətəndaşlar qəbul edilir.

Kursa qəbul üçün tələb olunan sənədlər:

- kursa qəbul olunmaq barədə ərizə;
- anket forması;
- tərcümeyi-hal (1 nüsxədə);
- təhsil haqqında sənədin surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- yaşayış yeri və ailə tərkibi haqqında arayış (1 nüsxədə);
- əlavə peşə və ya ixtisasınız varsa təsdiqedici sənədlərin surəti (diplom, sertifikat, şəhadətnamə və s.);
- şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış (1 nüsxədə);
- sürücülük vəsiqəsinin surəti (olduğu təqdirdə, 1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (1 nüsxədə);
- rəngli fotoşəkil (baş geyimsiz, anfas, 6 ədəd 3x4 sm, 2 ədəd 4.5x6 sm və 3 ədəd 9x12 sm);
- hərbi biletin bütün vərəqlərinin notarial qaydada təsdiq olunmuş surəti (1 nüsxədə, kişi cinsli vətəndaşlar üçün);
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Elektron qaydada müraciət etmək istəyən namizədlər mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindəki "Çavuş hazırlığı (MAHHXHQ)" hissəsinə keçid edərək elektron sənəd qəbulu portalından müvafiq sənədlərlə tanış ola və müraciət edə bilər.

Ətraflı məlumat üçün Milli Müdafiə Universitetinin rəsmi veb saytına (mmu.edu.az) keçid edə və ya Çağrı mərkəzi - *0811 (iş günlərində saat 09:00-dan 17:30-dək) ilə əlaqə saxlaya bilərsiniz.

# Xəbərlər: hadisələr, faktlar



### Türkiyə sahilləri yaxınlığında silahları olan pilotsuz kater məhv edilib

Türkiyənin Trabzon vilayəti sahillərinin yaxınlığında idarəetməni itirmiş silahları olan pilotsuz kater aşkar edilərək məhv edilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat verib.

Qeyd olunur ki, kater balıqçı gəmisi tərəfindən aşkar edilib. Qara dənizin təyin olunmuş sektoruna helikopterlər, PUA-lar, hərbi katerlər və tral gəmisi göndərilib.

"Rusiya-Ukrayna müharibəsi başlayandan bəri Qara dənizin Türkiyə sektorunda dəfələrlə minalar və idarəetməni itirmiş katerlər məhv edilib. Ən son belə hadisə sentyabrın 29-da ölkənin şimal-şərqindəki Trabzon vilayətinin sahilləri yaxınlığında baş verib. Pilotsuz kater Türkiyə Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları tərəfindən uzaqdan məhv edilib", - deyə nazirliyin məlumatında deyilir.

Müdafiə Nazirliyi sahilboyu zonada olan balıqçıları və sahilyanı ərazinin ümumi əhalisini ayıq olmağa, şübhəli obyektlərlə təmasdan qaçmağa çağırıb.

### Norveçdə Rusiya sərhədi yaxınlığında təlimlər zamanı beş əsgər itkin düşüb



Rusiyanın Murmansk vilayəti ilə həmsərhəddə təlimlər zamanı beş Norveç əsgəri itkin düşüb.

Bu barədə TV2 polisə istinadla məlumat yayıb.

Əməliyyat qərargahının rəisi Haukland Hansen bildirib ki, əsgərlər görüş vaxtını səhv başa düşmüş və ya gecikmiş ola bilər.

O əlavə edib ki, ilkin olaraq 10 əsgər itkin düşüb, onlardan 5-i axtarış əməliyyatı zamanı tapılıb.



### NATO Yunanıstandan Kiyevə dəstəyini artırmağı tələb edir

NATO Yunanıstandan Ukraynaya hərbi dəstəyini artırmağı, əsasən də "Mirage" qırıcı təyyarələrini Kiyevə verməsini tələb edir.

"Katimerini" qəzetinin məlumatına görə, Yunanıstanın NATO-dakı müttəfiqləri və tərəfdaşları Kiyevə dəstəyini gücləndirməsi üçün Afinaya təzyiqləri artırır.

ABŞ, Fransa və NATO-nun şərq cinahı ölkələri Yunanıstandan 24 ədəd "Mirage 2000-5" qırıcı təyyarəsindən bir neçəsini vasitəçi ölkələrə satmasını istəyir. Bu təyyarələr daha sonra Ukraynaya verilməlidir. Potensial vasitəçilər kimi ABŞ, Almaniya, Çexiya və ya Estoniya çıxış edə bilər. Qırıcılar Fransa istehsalı olduğundan Afina hazırda bu mövzunu Parislə fəal müzakirə edir.

Yunanıstan gələcəkdə əlavə olaraq 6-12 ədəd "Rafale" qırıcısı almağı planlaşdırır və "Mirage 2000-5" təyyarələrinin satışı Afina üçün yeni qırıcıların dəyərini azalda bilər.

Lakin nəşr qeyd edir ki, "Mirage" təyyarələrinin Ukraynaya satılması ehtimalı Afinada neqativ qarşılanıb. Yunanıstan həmin qırıcıdakı yüksək texnoloji sistemlərin Rusiya əleyhinə istifadə olunacağından narahatdır.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Baxışov Elçin Gülağa oğluna verilmiş MN № 0062567 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əhmədxanov Nobil Əflan oğluna verilmiş MV № 000392 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefonlar | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
| --- | --- | --- | --- | --- | --- | --- |
| mayor Ceyhun CƏFƏRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Bəxtiyar ƏLİYEV | Lisenziya № 361 Sifariş № 514 Nüsxə 3630 |